AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİNİN QƏRARI |
| Qəbul edildiyi tarix | 11.05.2012 |
| Qeydiyyat nömrəsi | Q-07 |
| Adı | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2011-ci il 06 dekabr tarixli Q-01 nömrəli Qərarı ilə təsdiq edilmiş “İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər”ə dəyişikliklər edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 25.05.2012 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.050.030 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201205110Q07 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 24.05.2012 |

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”nin 18.8-ci bəndini rəhbər tutaraq, “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2011-ci il 06 dekabr tarixli Q-01 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər"ə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndin əvvəlinə "Sığortaçıya hər hansı icbari sığorta növünün aparılmasına icazə verilməsi üçün o," sözləri əlavə edilsin;

1.2. Aşağıdakı məzmunda 3–1-ci hissə əlavə edilsin:

"3 –1. Elektron informasiya sistemi ilə bağlı tələb

Sığortaçıya avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növünün aparılmasına icazə verilməsi üçün onun elektron informasiya sistemi İcbari Sığorta Bürosunun informasiya sisteminə veb servis vasitəsilə qoşulmaq imkanına malik olmalıdır."

1.3. 4-cü hissənin mətni 4.1-ci bənd hesab edilsin və aşağıdakı məzmunda 4.2-ci bənd əlavə edilsin:

"4.2. Bu Əlavə tələblərin 3–1-ci hissəsi 2012-ci ilin 01 sentyabr tarixindən qüvvəyə minir."

2. Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinin müdirinə (Z.Allahverdiyev) və Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisinə (N.Xəlilov) tapşırılsın ki, Hüquq şöbəsinin müdiri (X.Rəhmanov) ilə birlikdə bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

3. Bu qərarın icrasına nəzarət nazir müavini A. Bayramova həvalə edilsin.

**Nazir** **Samir Şərifov**